# Kredo

TARİX İNSANIN ƏQİDƏ VƏ İNAM UĞRUNDA MÜBARİZƏSİDİR!

Müstəqil ictimai-siyasi, publisistik qəzet №32 (1288) 06 noyabr 2025-ci il | Qiyməti 1 manat | Qəzet 1999-cu ilin oktyabrından çıxır


## ÇİNAR OĞULLARIN PARADINDA

*Cəbrayıl çinarlarının əzəmətində*
*döyüşən əsgər qüruru gördüm...*

Gəldim Cəbrayıla Cəbrayıl günü,
Dağlar qucaq açdı düzümə gəldi...
Torpağın yumşağı, daşın ötgünü,
Dilimə yol saldı, sözümə gəldi.

Ehey, Xan Çinarlı çağlayan kəhriz, -
Gözlərim vüsala yetdi sizinlə.
Sizsiz nə çəkmişəm, bir biləydiniz,
Diz çöküm sizə mən icazənizlə...

...Çinar gözlərimdə nura bələndi,
Yanmış gövdəsinə çəkdi sinəmi.
Üstümə yağışlı sevgi ələndi,
Qurtardı qəlbimin həsrət göynəmi...

Öpdüm yarpaq-- yarpaq şabaşlarını,
Kəhrizin suyunu üzümə vurdum;
Çağırdım çinarın qardaşlarını ,
Qəlbimdə qələbə mağarı qurdum.

Burda hər zərrədə qəlbim döyünür,
Hər daşın torpağın öz adındayam;
Baxıram gülüzlü Bayraq öyünür,
Çinar oğulların paradındayam...

*Cəbrayıl şəhəri*
*27. 10. 2025*



*Əli Rza XƏLƏFLİ,*
*şair-publisist*

## SƏKKİZ NOYABR GÜNÜ,

*yaxud Cəbrayılda qələbə düşüncələri*

8 Noyabr günü,
Qürurun, qələbənin
Sevinci toy-düyünü...

8 Noyabr günü,
Min bir ağrı, acının,
Cızdağı çıxan günü...

8 Noyabr günü,
Dəmir yumruq gücünə
Yağılara həddini,
Göstərən oğulların
Öcü kəsdi doğradı
Pas atmış kor düyünü...

8 Noyabr günü
Qaranlığın zülmətin
Bağrını sökənlərin
Doğum günü , ad günü...
Kor fəhmin ətalətin
Tərəfli tərəfsizin
İkiüzlü ATƏTin,
Torlarını dağıdan...
Yiyəsiz ədalətin,
Qisasını yağıdan
Alanların şad günü
Bu torpağın, bu yurdun,
Ayılan , abad günü.

8 noyabr günü
Sənə salama gəlir...
Üzü qırış dağlar da
Sərt qaya papağını
Dumanlardan çıxarır,
Üfüqə yol göstərir...
Azmasın inamsızlar...
Dağlar baxıb göz dərir,
Gümanlardan çıxarır...

8 Noyabr günü,
Ayrılıqdan ayrılan,
Dumanlardan sıyrılan,
Dağlar salama gəlir...

8 Noyabr günü
Budaq-budaq qaralmış ,
Yarpaq yarpaq saralmış,
Sevincindən bar almış
Bağlar salama gəlir...

8 Noyabr günü
Ötən günlər, fəsillər,
Vaxtsız solan nəsillər,
Yaddaşında əsillər,
Çağlar salama gəlir...

8 Noyabr günü,
Sənə salama gəlir,
Vətənin hər nəyi var
Sənə baş əyir gəlir
harda ki örnəyi var...

*Cəbrayıl şəhəri*
*27.10.2025*